MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

QONAQPƏRVƏRLİKDƏ SOSİAL ÜNSİYYƏT MƏDƏNİYYƏTİ:
NƏZƏRİ ƏSASLAR, STRUKTUR KOMPONENTLƏRİ VƏ MÜASİR ÇAĞIRIŞLAR
Arzu Soltan (Həsənli) 96

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ
Rauf Bəhmənli 110

MİLLİ ATÇILIQ MƏDƏNİYYƏTİ VƏ QARABAĞ ATÜSTÜ OYUNU – ÇÖVKƏN
Ramal Nadir 116

PƏHLƏVANLIQ – ƏNƏNƏVİ ZORXANA OYUNLARI VƏ İDMAN NÖVLƏRİ
Xəyyam Orucov 122

AZƏRBAYCANDA ARXEOLOJİ TƏDQİQATLARDA TEKSTİL NÜMUNƏLƏRİ
Fariz Xəlilli 125

XALÇAÇILIĞIN TARİXİ, REGİONLARA GÖRƏ XALÇA MƏKTƏBLƏRİ,
XALÇANIN MƏİŞƏTDƏ VƏ MƏRASİMLƏRDƏ ROLU, QORUNMA VƏ
YAŞADILMA PROBLEMLƏRİ
Kübra Əliyeva 129

AZƏRBAYCAN KƏLAĞAYISI – MİLLİ KİMLİYİMİZİN İPƏK SİMVOLU VƏ
MƏDƏNİ İRSİMİZİN ZƏNGİN XƏZİNƏSİ
Sulidə Rüstəmova 155

KƏLAĞAYI SƏNƏTİNİN MİLLİ-MƏDƏNİ İDENTİKLİK KONSTEKTİNDƏ SEMİOTİK VƏ
ESTETİK TƏHLİLİ
Röya Talıblı 157

LAHICDA MİSGƏRLİK SƏNƏTİ HAQQINDA
Nəzər Əliyev 161

TƏZHİB SƏNƏTİNİN TARİXİ VƏ MAHİYYƏTİ
Şəhla Xəlilli 165

ŞƏRQİN İNCİSİ OLAN AZƏRBAYCAN MİNİATÜR SƏNƏTİNİN İNKİŞAF YOLU
Nərmin İmanova 169

AZƏRBAYCAN MİLLİ MƏTBƏXİNİN TƏHRİFSİZ ŞƏRHİ
Ceyran Əsgərova 175

XALQIMIZIN SÜFRƏ VƏ MƏTBƏX MƏDƏNİYYƏTİ
Kübra Əliyeva 190

TƏNDİRİN TARİXİ VƏ MƏDƏNİ ƏHƏMİYYƏTİ
Aida İsmayılova 194

ARXEOLOJİ TƏDQİQATLARDA MƏTBƏX, ÇÖRƏK VƏ YEMƏK MƏDƏNİYYƏTİ
Fariz Xəlilli 198

RƏQS, OYUN VƏ ƏNƏNƏVİ İDMAN MƏDƏNİYYƏTİ ANLAYIŞI VƏ TARİXİ

Rauf Bəhmənli
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası
https://doi.org/10.30546/19023.2026.1001.261

Rəqs – Azərbaycan xalq musiqisinin, musiqi folklorumuzun çox qədim tarixə malik olan janrlarındandır. Onun çoxəsrlik tarixə malik olması faktı xalq rəqslərimizin əsas qollarından biri sayılan "yallı"nın yaranması ilə bağlıdır. Azərbaycanda yallının dərin kökləri haqqında bir çox mənbələr, arxeoloji qazıntılar, tarixi ərazilər bizə mühüm və maraqlı məlumatlar açıqlayır. Belə ki, Qobustan ərazisindəki qayaüstü təsvirlər, Ordubad ərazisində Gəmiqaya dağındakı əl-ələ verib dövrə ətrafında rəqs edən insan şəkilləri, arxeoloji qazıntılar zamanı tapılmış müxtəlif əşyaların üzərindəki yallı oynayan insan rəsmləri, tarixçilərin, alimlərimizin illərlə apardıqları elmi araşdırmalar Azərbaycanda mərasim rəqsi sayılan yallının tarixini eramızdan əvvəl V minilliyə aid olduğunu sübuta yetirmişdir.

Qobustandakı qayaüstü təsvirlərin yaranma tarixi üst Paleolit dövrünün orta Daş (Mezolit) dövrünə aid olunur. Buradakı qayaüstü təsvirlər ilk dəfə 1938-ci ildə aşkar edilmiş və ilk tədqiqat işi əməkdar elm xadimi İshaq Cəfərzadə tərəfindən aparılmışdır [8, s.17]. Qobustanın qayaüstü təsvirlər kolleksiyası Böyükdaş, Kiçikdaş, Cingirdağ, Yazılıtəpə, Şonqar və Şıxqaya dağları sahəsində aşkar edilmişdir. Uzunluğu 15-20 km, eni isə 2 km olan bu ərazidə "petroqlif" üsulu ilə çəkilmiş (daş üzərində naxış açma) 6 mindən çox təsvir əldə olunmuşdur ki, bu təsvirlərin bəzilərində əl-ələ tutub yallı gedən insan cizgilərinə rast gəlirik.

Ordubadın Tivi və Nəsirvazlı kəndlərinin şimal-şərqində yerləşən, dəniz səviyyəsindən 3907 metr yüksəklikdə qərarlaşan Gəmiqaya dağındakı qayaüstü təsvirlər isə ilk dəfə 1960-cı illərdə qeydə alınmışdır. Buradan çoxlu sayda "qazma", "cızma", "döymə" üsulu ilə icra edilmiş (çəkilmiş) rəsmlər və piktoqrafik yazı nümunələri tapılmışdır. Gəmiqayada uzun müddət arxeoloji tədqiqatlar aparmış arxeoloq-alim Vəli Əliyev tərəfindən öyrənilmiş qaya təsvirləri arasında bəzi rəsmlər yallı rəqsinin tarixindən xəbər verir. Təsvirlərin birində qayanın mərkəzi hissəsində od və günəş rəmzi sayılan kiçik dairə, onun ətrafında isə qollarını yuxarı qaldırıb rəqs edən insan rəsmləri həkk olunmuşdur [2].

Qədim Midiya ərazisində aşkar edilən, boyalı qablar üzərində kişilərlə yanaşı qadınların da rəqs etdikləri təsvirlər, tək və kollektiv surətdə oynanılan rəqs şəkilləri çəkilmişdir [9, tablo 36].

Azərbaycanda ibtidai insan düşərgələrinin və digər abidələrin aşkar edilməsi və öyrənilməsi tarixi, eləcə də, arxeoloji qazıntılar və onların nəticələri haqqında məlumat açıqlayan, bu sahədə 25 il tədqiqat aparmış tarixçi-alim Cəfərqulu Rüstəmov ehtimal edir ki, "yallı" – kollektiv şəkildə oynanılan bu rəqsə sonradan verilmiş addır. Çünki ibtidai insanlar hələ danışmazdan qabaq istər əl-ələ verərək, istərsə də əllərində nizələr tutaraq müxtəlif rəqslər ifa ediblər. Bu da onların yaşamaq zərurətindən yaranmışdır. Belə ki, ov zamanı vəhşi heyvana qalib gəlmək üçün bu insanlar bir yerdə, kollektiv şəkildə heyvan sürülərini lazım olan istiqamətə (tələyə) yönəltməli, bir anda da zərbə endirməliydilər. Qaçmağa yol tapmayan yaralı vəhşinin ovçulara hücum edəcəyi təqdirdə isə bir-birinə kömək etmək, nizə atmaq, qayadan vəhşi heyvanın üstünə tullanaraq onu yararsızlaşdırmalıydılar. Bütün bu vərdişləri onlar bugün "yallı" adlandırdığımız oyunlarda əldə edirdilər. C.Rüstəmov hesab edir ki, bu rəqs bir növ məşq xarakteri daşıyan idman oyunu kimi meydana gəlmişdir [8, s. 96], [Idman, Cəngi, Meydan tamaşaları].

Cəngi rəqsinin yaranma tarixini araşdırarkən, onun da ilkin köklərinin ibtidai insanların yaşadığı dövrlərə təsadüf edildiyi aşkar olunmuşdur. Bu faktı, qəbilələr arasında gedən müharibələrdə insanların istifadə etdiyi döyüş silahlarının qədimliyi təsdiqləyir. Belə ki, o dövrdə ov üçün, eləcə də döyüş üçün hazırlanan silahlar taxtadan düzəldilərdi. Döyüş nizələrinin başlığı (nizə ucluğu) sümükdən hazırlanardı. Digər tərəfdən ox və kamanın Mezolit dövrünün (e.ə. XII minillikdə yaranmış, e.ə. VIII minilliyə qədər davam etmişdir) sonlarında yarandığı tarixi faktdır. Azərbaycanda Mezolit dövrü əsasən, Qobustan abidələri və "petroqlif" (cızma) üsulu ilə çəkilmiş qayaüstü rəsmlər əsasında öyrənilmişdir. Bu rəsmlərdə əlində ox və kaman tutan insan təsvirləri əks olunmuşdur.

İbtidai insanlar qonşu qəbilələri ilə döyüşə hazırlaşarkən, əllərinə nizələr alaraq, ox və kamanla silahlanmış vəziyyətdə düşmənlə vuruşunu əks etdirəcək müxtəlif ayinləri icra etmişlər. Belə rəqslərdə döyüşçülər dövrə ətrafında və ya bir neçə sırada düzülərək, əvvəlcə, nizələri başları üstünə qaldıraraq ardıcıl arxaya və irəli hərəkət etdirməklə düşmənə zərbə endirəcəyini nümayiş etdirmiş, daha sonra oxu kamana qoyub yayı dəfələrlə çəkərək hədəfi məhv edəcək səhnəni canlandırmışlar. Bu məşq xarakteri daşıyan ayin-rəqslər döyüşçülərdə qorxmazlıq, güc, çeviklik, dözümlülük və ən əsası, qələbəyə inam yaratmışdır.

Bu baxımdan yallı və cəngi rəqslərinin yaranmasında mifoloji xüsusiyyətlərə diqqət yetirilməlidir. Belə ki, yağış, ildırım, külək və s. təbiət hadisələrinə canlı varlıqlar kimi baxan, ağaclara, heyvanlara, göy cisimlərinə müqəddəs məxluqlar kimi sitayiş edən ibtidai insanlar bu inandıqları fövqəl qüvvələr qarşısında müxtəlif ayinləri rəqs edərək icra etmiş və bu qüvvələrdən bütün işlərinin tənzimlənməsi üçün xeyir-dua qazanmağa çalışmışlar.

Tarixdən bizə məlumdur ki, uzun əsrlər boyu Azərbaycan ərazisində atəşpərəstlik hökm sürmüşdür. Ümumiyyətlə, Azərbaycan hər zaman ərzin od məkanı, odlar yurdu sayılmışdır. Heç bir biliyə malik olmayan, odun gücünə inanan qədim əcdadlarımız ov zamanı hansısa bir vəhşi heyvanın ovlanması sevincini və ya müxtəlif tapıntılarını, əldə etdikləri yeni nailiyyətlərini bildirmək üçün tonqallar qalayar, əl-ələ verib cərgə-cərgə, qrup halında odun ətrafında dövrə vuraraq müxtəlif rəqslər oynayardılar. Qədim dövrün bu adət-ənənələrindəki bəzi elementlər əsrlərin süzgəcindən keçə-keçə bu günümüzədək gəlib çatmış və indi də yallılarımızın ifası zamanı istifadə olunmaqdadır. Belə ki, keçmişdə günəşi, ayı, küləyi, odu və suyu müqəddəs sayan insanlar indi də baharın (novruzun) gəlişini təntənə ilə qeyd edərək, bayram gününə kimi dörd çərşənbənin (su, od, torpaq, külək) hər birində tonqallar yandırır, odun üstündən tullanır, əl-ələ verərək tonqal ətrafında yallı gedirlər.

Apardığımız tədqiqatlardan məlum olmuşdur ki, yallılar qədim dövrlərdən bəri Azərbaycan ərazisinin indiki Şərur, Ordubad, Şahbuz, Şəki, Kəlbəcər, Laçın, Qazax və Qərbi Azərbaycan ərazisi olan İrəvan bölgəsində çox geniş yayılmışdır. Bu bölgələrdə, əsasən, toylarda və el şənliklərində yaşlı insanlardan başlayaraq uşaqlara kimi hər kəs dəstə tutub yallı gediblər. Ümumiyyətlə, "yallı" məvhumu Azərbaycan xalqının dilində çox qədim zamanlardan mövcuddur. Belə ki, "yal" sözü – dağın yüksəkliyində yerləşən düzəngah mənasını bildirir. Görkəmli musiqişünas-alim Bayram Hüseynli "yallı" sözünün mənasını belə açıqlayır; "Azərbaycan dilində "Yal" sözü bir neçə mənada işlənir. Bunlardan biri də dağlar, təpələrdir ki, Azərbaycan xalqı arasında onlara yal da deyilir. Zənnimizcə yallı məvhumu da məhz bu mənadan doğmuşdur. Çünki yallı rəqsində əl-ələ verib oynayan adamlar bir növ çiyin-çiyinə durmuş dağları xatırladır" [6, s. 7].

Azərbaycanda düzəngah mənasında işlənən yal sözü ilə adlandırılmış ərazilər saysızdır. Məsələn, Gəncənin 30 km cənubunda dağlıq yerdə sıra ilə düzülmüş sarı qayalıqda yerləşən düzəngah "Sarı yal" adlanır. Kəlbəcər və Laçın ərazisində Qırxqız yaylağı ilə Çilgəz dağının

arasındakı düzəngaha “Gödək yal” deyirlər. Ümumiyyətlə, Azərbaycanda bu cür yer adları çoxluq təşkil edir. “Uzun yal”, “Cıdır yalı”, “Oyuqlu yal” və başqaları belə ərazilərdəndir.

Xalq rəqslərimizin araşdırılmasında, qədim oyun havalarındakı xoreoqrafik hərəkətlərin öyrənilməsində və gənc rəqqasların milli ruhda püxtələşməsində görkəmli baletmeyster, professor Kamal Həsənovun əməyini də xüsusilə qeyd etməliyik. O, uzun illər tədqiqat apardığı yallı havalarının ilk dəfə oyun qaydalarını, gediş hərəkətlərini yazmış, teatrlaşdırılmış, süjetli oyun-rəqslərini təhlil etmişdir [4, s. 47-99]. K.Həsənov “yallı” sözünün mənasını açıqlayaraq yazır ki; “Yal – cərgədir, zəncir xəttidir. “Yallı”nı oynayanlar bir və ya iki cərgədə, bəzən də bir neçə cərgədə dururlar” [5, s. 56].

Yallı – həmrəylik rəmzidir. Azərbaycanın görkəmli bəstəkarı Əfrasiyab Bədəlbəyli “yallı” oyununa yüksək qiymət verərək yazırdı ki; “Burada çox intişar edən “yallı” forması bütün bir elin, bir obanın kollektiv surətdə öz sevinc duyğularını, bacarıq və istedadını təmsil edən əzəmətli bir yaradıcılığın parlaq təzahürüdür” [1, s. 255].

Yaranışından ta bu günə kimi yallılar xalqımızın yaşam tərzini, adət-ənənəsini, mübarizliyini, qorxmazlığını və birliyini özündə əks etdirmişdir. Dünyanın bir çox xalqlarında da bu cür keyfiyyətləri özündə cəmləşdirən yallıya bənzər rəqslər mövcuddur. Rumınlarda “Arkan”, bolqarlarda “Treskoxoro”, moldavanlarda “Tabakaryaska”, özbəklərdə “Lapar”, gürcülərdə “Perxuli”, fransızlarda “Branl”, yunanlarda “Sirtaki” və s. belə oxşar rəqslərdəndir.

Yallı – cərgəyə düzülərək dəstə ilə ifa olunan kütləvi rəqsdir. Oyun zamanı yallıya kollektivin önündə gedən iştirakçı (rəqqas) rəhbərlik edir. Ona xalq arasında “yallıbaşı” deyirlər. Yallıbaşı əvvəldən axıradək rəqsin ümumi gedişinə, iştirakçıların nizamlı hərəkətinə, hər bir ayaq hərəkətinin bütün iştirakçılar tərəfindən eyni qaydada yerinə yetirilməsinə, rəqsin düzgün başlamasına və vaxtında sona yetməsinə nəzarət edir. Bu işdə “yallıbaşı”ya ondan sonra gələn (ikinci rəqqas) iştirakçı “müavin” və dəstənin axırında duran sonuncu iştirakçı “ayaqçı” kömək edir. Yallını oynayarkən yallıbaşının və ayaqçının əlində yaylıq olmalıdır. Onlar əllərini yuxarı qaldıraraq yaylığı yelləməklə dəstənin əvvəlinin və axırının harda olduğunu bildirirlər.

Yallı dəstəsinə düzülən iştirakçıların sayı dəqiq müəyyən olunmur. Adətən yallı dəstəsinə 20-30 nəfər düzülür. Lakin bəzən, xüsusilə də, toy şənliklərində bu iştirakçıların sayı 40-50, açıq havada hətta 60-80 nəfərə çatır. Yallı kollektivi həm kişilərdən, həm də qadınlardan ibarət ola bilər. Çox zaman bu rəqs qarışıq ifa olunur. Oyun zamanı iştirakçılar əl-ələ verərək və ya qollarını yana geniş açmaqla əllərini digər iştirakçının çiyninə qoyaraq rəqs edirlər. Bu zaman hər bir iştirakçı “yallıbaşı”nın etdiyi bütün hərəkətləri olduğu kimi, onunla bərabər eyni vaxtda təkrar etməlidirlər. Hər hansı bir hərəkəti düzgün oynamayan iştirakçı ya cəzalanır, ya da dəstədən kənarlaşdırılır.

Elə yallılar da var ki, orada iki dəstə iştirak edir. Üz-üzə dayanmış iki yallı dəstəsi ardıcıllıqla müxtəlif hərəkətlər nümayiş etdirirlər. Bir dəstənin etdiyi hərəkəti digər dəstə təkrar etməyə çalışır. Sonda hər iki dəstənin başçısı güləşirlər və qalib gələn başçı dəstələri birləşdirməklə onlara rəhbərlik edir.

Yallı rəqsi incəsənətin sinkretik forması olaraq instrumental, vokal musiqi və ifaçılıq kimi bir neçə sənəti özündə birləşdirir. Yallılar xoreoqrafik məzmununa görə iki yerə bölünür. Bunlardan birincisi “süjetli yallılar”dır. Bu növ yallıların xoreoqrafik quruluşu və ifa tərzi müəyyən bir süjeti tərənnüm edir. Belə yallılar teatrlaşmış xalq oyunları olduğu üçün “oyun-yallı” adlanır. “Qazı-qazı”, “Üç barmaq”, “Zopu”, “Çöp-çöpü” (“Nehrəmi” də adlanır), “Köçəri”, “Ver-veri”, “Üç pəncə” (“Axsaq yallı” da adlanır), “Dırqoyu” (“Qaleyi” də adlanır), “Turacı” kimi yallılar buna gözəl nümunədir. Məsələn, “Dırqoyu” yallısında qanadı qırılmış

quşun süjeti göstərilir. Quş qanadı sındığından uça bilmir, lakin buna baxmayaraq tez-tez onu qaldıraraq hərəkətə gətirmək istəyir. Quşun uçmaq istəyi, yaşamaq həvəsi rəqsin xoreoqrafik quruluşunda çox dolğun şəkildə öz əksini tapmışdır. "Dırqoyu"nun musiqi məzmunu, tempi, xüsusilə də ritmi rəqsin süjetini o qədər düzgün açıqlayır ki, yallını izləyən hər kəs istər-istəməz təsirlənərək quşun bu əlacsız vəziyyətinə acıyır. "Üç pəncə" adlanan yallı havasında isə pəncəsinin biri əzilmiş ayının axsaya-axsaya gəzməsi rəqsin süjet xəttini təşkil edir. Məhz bu səbəbdəndir ki, rəqsin ikinci adı da "Axsaq yallı" adlanır.

Digər yallılar isə müəyyən əhval-ruhiyyəni, xüsusən, qəhrəmanlığı, gümrahlığı, gəncliyi və cəldliyi ümumi şəkildə tərənnüm edən "rəqs-yallılar"dır. Bu yallılara "Tənzərə", "Siyaqutu", "Sürütmə" ("Qədim yallı" da adlanır), "Naxçıvan", "Şahbuz" ("Bayram yallısı" da adlanır), "Havarı", "Daşbulağı", "Yeqara", "Tala", "Ürfanı", "Ağbulaq", "Ağbaba", "Yellicə" ("Novruzu" da adlanır), "Papılı" və başqaları daxildir.

Yallılar musiqi müşayiətinə görə də iki yerə bölünürlər:

1. Mahnı (reçitativ) müşayiəti ilə ifa olunan yallılar.
2. Musiqi (instrumental) müşayiəti ilə ifa olunan yallılar.

Mahnı ilə müşayiət olunan yallılarda instrumental ifa yoxdur. Daha doğrusu, belə yallılar əvvəllər musiqi çalğısı olmadan, yalnız mahnı kimi oxunurdu. Belə ki, rəqsi oynayan dəstənin bütün iştirakçıları hansısa bir şeiri, mətni xorla, mahnı kimi ifa etməklə yallı gedirdilər. Bu zaman oynayanlar oxuduqları mahnının ritmini ayaq hərəkətlərinə əsasən təyin edirdilər. Belə yallılara Naxçıvanda "dil yallıları" da deyirlər. Çox maraqlıdır ki, hər bir yallı öz ayaq hərəkətlərinə uyğun ritmə və ritmik quruluşlara malikdir. Bu səbəbdəndir ki, bir çox yallılar "ikiayaq", "üçayaq" və "dördayaq" adlanırlar. Sonralar yallı oyununa yalnız bir zərb aləti (çubuqla çalınan nağara) əlavə olunmuşdur. Təkcə zərb alətinin müşayiəti ilə oxunaraq oynanılan yallılar öz quruluşu etibarilə "halay"ların quruluşuna çox yaxındır.

Musiqi məzmununa mətn (şeir) əlavə edilərək mahnı kimi ifa olunan yallılardan "Qaladan qalaya", "Tirmə-şal" ("Arzumanı" kimi də adlanır), "Dönə", "Tello", "Leyli xanı", "Hoynare", "Ala gülbəngi", "Güleynare", "Mərcanlar" və başqalarının adlarını çəkmək olar. Bu yallılardakı mahnıların mətni, əsasən kəndlilərin əmək fəaliyyətini, onların gündəlik həyat tərzini, cəsarətini, qəhrəmanlığını, sevgisini tərənnüm edir. Belə mahnıların sözləri xalq tərəfindən yaranmış və bu gün də özünün xüsusi bədii-poetik məziyyətləri ilə seçilərək qoşma və bayatılardan ibarət olmuşdur.

Yallının digər növü isə instrumental musiqi ifası ilə müşayiət olunan rəqs-yallılardır. Əvvəla bir daha xatırladırıq ki, kütləvi rəqs olan "yallı"ları açiq havada (dağətəyi yamacda və ya düzəngah çəmənlikdə) oynayırlar. Bu zaman onları güclü tembrə malik olan alətlər müşayiət etməlidir ki, yallı gedənlər hərəkət zamanı və mahnı oxuyarkən, rəqsin musiqisini və ritmini aydın eşidə bilsinlər. Bu səbəbdən ritmləri ifa etmək üçün nağara alətinə çubuq və ya çubuqlar da əlavə olunmuşdur. Azərbaycan xalq musiqisinin dərin araşdırıcılarından sayılan musiqişünas Məmmədsaleh İsmayılov yallıların ritmik xüsusiyyətləri haqqında belə yazırdı; "Yallı rəqsinin musiqisi metro-ritmik cəhətdən olduqca ciddi və oynaqdır. Bu rəqsin musiqisində xüsusən zərb alətlərinin rolu böyükdür. Nağaraya vurulan kəskin zərblər oynayanları qeyri-iradi olaraq şuxlandırır və rəqsin ritmik şəkildə davam etməsinə kömək edir" [7, s.45].

Ümumiyyətlə, yallıların ifasında hər zaman qədim musiqi alətlərimiz olan zurna və nağaradan istifadə edilib. Hal-hazırda yallı rəqslərini müşayiət edən müxtəlif tərkibli musiqiçi dəstələri (ansambllar) mövcuddur. Bu ansambllar üç, dörd və daha artıq musiqiçidən ibarət olur. Məsələn, Naxçıvan bölgəsində yallıları üç nəfərdən ibarət musiqiçi dəstəsi müşayiət edir. Bura

iki zurna, bir nağara ifaçısı daxildir. Zurna ifaçılarından biri rəqsin əsas melodiyasını ifa edən solistdir. O həm də ansamblın rəhbəri sayılır. Dəmkeş adlanan digər zurnaçı isə bu melodiyada tonikanı və digər istinad pərdələrini "dəm" şəklində uzadaraq ifa edir. Ritmləri ifa edən nağaraçı çubuqdan istifadə edərək iri nağarada (davul, kos) yallını müşayiət edir.

Yallının çox istifadə olunduğu bölgələrdən biri də Şəkidir. Buradakı yallı ansambllarının tərkibi isə dörd nəfərdən; yəni iki zurna və iki nağara ifaçılarından ibarət olur. Onu da qeyd etməliyik ki, Şəkidə solisti müşayiət edən ikinci zurna ifaçısı "zilçi" adlanır.

Kollektivdə zurnaçıları müşayiət edən iri nağara – "kos", iki çubuqla çalınan digər kiçik diametrli nağaraya isə "bala nağara" və ya "dümbək" deyilir.

1. Birinci zurna – solo;
2. İkinci zurna – dəmkeş və ya zilçi;
3. İri nağara – kos (tək çubuqla çalınır);
4. Kiçik nağara – bala nağara, dümbək (iki çubuqla çalınır);

Yallıların ifası zamanı çox zəruri müşayiət formalarından biri də "ritmli küy"lərdir. "Ritmli küy" terminini ilk dəfə Bayram Hüseynli (1923-1992) işlətmişdir. Ritmli küy – "ritmik səslər" deməkdir. Bu səsləri yallını oynayan iştirakçılar müxtəlif hərəkətlərlə əldə edirlər. Çəpik çalmaqla, ayaqlarını yerə döyməklə, əllərini dizlərinə vurmaqla, çırtmalarla öz oyunlarını müşayiət edən rəqqaslar yallıda yeni bir ritmik ahəng yaradırlar. B.Hüseynli "ritmli küy" sözünün mənasını belə açıqlayır; "Ritmli küylə müşayiət də yallılar üçün səciyyəvidir. Ritmli küylə müşayiət bir neçə növ olur. Bura yallı gedərkən rəqqasların çəpik çalmasından, yanındakı rəqs yoldaşı ilə əl-ələ vurmasından, öz buduna vurmasından, ayaq döyməsindən, çırtma çalmasından alınan ritmli küylər, yallıda istifadə olunan atributların (çomaq, çubuq, qamçı və sairə) zərbindən alınan ritmli küylər və eləcə də tamaşaçıların əl vurmasından, çırtma çalmasından, ayaq döyməsindən alınan ritmli küylər daxildir" [6, s. 9].

Yallılar özünün musiqi məzmununa görə 1, 2 və ya 3 hissədən ibarət olur. Bir hissəli yallılarda musiqi məzmunu dəyişmədən əvvəlcə ağır, sonra isə get-gedə sürətlənərək tez tempdə ifa edilir. Belə yallılar, əsasən, 6/8 ölçüdə (bəzən 3/8 ölçüdə), "ardıcıl" ritmlə ifa olunurlar. Bir hissəli yallılardan "Qazı-qazı", "Zülfanı", "Nare", "Tello", "Hoynare", "Zopu", "Dərviş baba", "Sareyi" ("Qofeyi" kimi də adlanır), "Üç barmaq", "Köhnə Qaradağlı", "Daşbulağı", "Şəki", "Tala", "Ver-veri", "Qənimo", "Çöp-çöpü" ("Nehrəmi" kimi də adlanır), "Laçın bala" və başqalarını göstərə bilərik.

İki hissəli yallılarda bəzən ikinci hissə birincidən fərqli musiqi məzmununa malik ola bilər. Lakin çox zaman ikincinin musiqi məzmunu birincinin variasiya olunmuş formasından ibarər olur. Məsələn, ikinci adı "Buğda" olan "Delasoru" yallı havası Şur muğam ailəsinə daxil olan kiçik hissəli Bayatı-Kürd muğamı üzərində qurulmuş melodik məzmuna malikdir. Naxçıvan bölgəsində oynanılan bu yallının 2-ci hissəsi Ordubadda həmin muğamın intonasiyasında, Şərurda isə Rahab muğamı üstündə qurulmuş melodik məzmunda səslənir.

İki və üç hissəli yallılarda hər bir hissə müxtəlif ritmlə ifa olunur. Məsələn, yallı iki hissəlidirsə, onun 1-ci hissəsi 2/4 və ya 4/4 ölçülərdə, marşsayağı, "yallı ritmi"ndə ifa edilir, 2-ci hissə əsl rəqs havası kimi, 6/8 ölçüsündə "ardıcıl ritm"lə çalınır. Üç hissəli yallılarda isə 2-ci hissə bəzən 3/8 ölçüdə (çox vaxt 6/8 ölçüdə) ifa olunsa da, 3-cü hissədə yenidən 6/8 ölçüsündə səslənir. Belə yallılardan "Ürfanı", "Köçəri", "Tənzərə", "Çınqı-çınqı" ("Xərəc" kimi də adlanır), "Dəlilo", "Delasoru" (ikinci adı "Buğda"), "Qara Pir", "Şərur", "Çopudum", "Dəhnə" ("El yallısı" kimi də adlanır) iki hissəli, "İrəvan" (ikinci adı "Dördayaq"), "Gopu", "Kürdün ağırı" və başqaları üç hissəlidir.

Yallı rəqslərinin ifasında ən mühüm amillərdən biri də tempdir. Çünki, bir, iki və ya üç hissədən ibarət olan yallının hər bir hissəsi öz musiqi məzmununa uyğun müxtəlif tempə malikdir. Yallıların hissələri arasında temp bölgüsü elə aparılmışdır ki, rəqs çox ağır, asta hərəkətlərlə başlayır, 2-ci hissəyə keçərkən orta tempdə, nisbətən cəld hərəkətlərlə davam etdirilərək, 3-cü hissədə tez, iti surətdə oynanılır.

Rəqsi müşayiət edən musiqiçilərin, xüsusilə də, zərb aləti ifaçılarının nəzərləri hər zaman yallı gedənlərdə olmalıdır. Nağaraçı istər rəqsi başlayarkən, istərsə də onun digər hissələrinə (2-ci və 3-cü hissə) keçərkən elə temp seçməlidir ki, yallını oynayan kollektiv hərəkətləri tələsmədən, düzgün qaydada, nizamla yerinə yetirə bilsinlər.

Yallı Azərbaycan xalqının milli-mədəni sərvətidir. Onu daim qorumaq, yaşatmaq və gələcək nəs¬lə ötürmək üçün bizim dahi bəstəkarlarımız öz əsərlərində də bu janra böyük yer ayırmışlar. Üzeyir Hacıbəyli "Koroğlu" operasında, Müslüm Maqomayev "Nərgiz" operasında, Soltan Hacıbəyov "Gülşən" baletində, Cahangir Cahangirov "Azad" operası və xalq çalğı alətləri üçün "Yallı" əsərində, Rauf Hacıyev "Yallı balet miniatürləri"ndə yallının janr xüsusiyyətlərindən istifadə etmişlər.

Yallı xalqı sülhə səsləyən musiqisi ilə, möhtəşəm ritmik ahəngi ilə çox böyük emosional təsirə malikdir. Bu musiqinin qüdrəti insan mənəviyyatının saflığını ön plana çəkir. Yallı təkcə musiqi və rəqs növü deyil, o qədim türk tarixinin başlıca möhürü, Azərbaycanımızın mənəvi emblemi və xalqımızın azərbaycançılıq simvoludur.

Ədəbiyyat:

1. Azərbaycan etnoqrafiyası. – III cild. – Bakı: Şərq-Qərb, 2007. – S. 253–260.
2. Əliyev V. Q. Gəmiqaya rəsmləri // Ədəbiyyat və incəsənət. – 1969. – 2 avqust.
3. Hacıbəyli Ü. Ə. Əsərləri. – II cild. – Bakı, 1965.
4. Həsənov K. N. Azərbaycan qədim folklor rəqsləri. – Bakı: İşıq, 1988. – 127 s.
5. Həsənov K. N. Qədim Azərbaycan xalq rəqsləri. – Bakı: İşıq, 1983. – 59 s.
6. Hüseynli B. X. Azərbaycan xalq rəqs melodiyaları. – I dəftər. – Bakı: Azərnəşr, 1965. – 42 s.
7. İsmayılov M. C. Azərbaycan xalq musiqisinin janrları. – Bakı: İşıq, 1984. – 100 s.
8. Rüstəmov C. N. Qobustan dünyası. – Bakı: ADN, 1994. – 174 s.
9. Алиев И. Г. История Мидии. – Баку: Изд-во АН Азерб. ССР, 1960. – 361 с.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300